**9 Noyabr Azərbaycanın Dövlət Bayrağı Günüdür**

# Azərbaycan bayrağı qürur mənbəyimiz, canımız, ürəyimizdir



**Azərbaycan Prezidenti İlham Əliyev İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş şəhərlərimizdə dəfələrlə Dövlət Bayrağımızın qarşısında baş əydi, diz çökdü, onu öpdü və sonra həmin ərazidə əbədi dalğalandırmaq üçün göylərə qaldırdı. Bu, həmin sərkərdədir ki, cəmi 44 gündə Ermənistan rəhbərliyini və generalitetini baş əyməyə məcbur etmiş, Ermənistan dövlətini diz çökdürmüşdü.**

(ardı 9-cu səhifədə)

# Azərbaycan bayrağı qürur mənbəyimiz, canımız, ürəyimizdir

*(əvvəli 1-ci səhifədə)*

Prezident İlham Əliyev Şuşada, Ağdamda, Füzulidə, Zəngilanda, Cəbrayılda və işğaldan azad edilmiş digər bölgələrimizdə dövlət bayrağımızı qaldırmazdan on il qabaq– yenə də sentyabr ayında demişdi: "Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir". On il sonra Prezident həmin qürur mənbəyimizin, canımızın, ürəyimizin qabağında diz çökdü və onun Vətənimizin bütün ərazilərində dalğalanması münasibətilə xalqımızı təbrik etdi.

İnanırıq ki, müzəffər Ali Baş Komandanımız bu bayraq sevgisini, dövlət atributlarımıza ehtiramı atası, bütün azərbaycanlıların xilaskarı, ümummilli lideri olan Heydər Əliyevdən əxz etmişdir. Çünki Heydər Əliyev ötən əsrin əvvəlindəki müstəqil Azərbaycanın üçrəngli bayrağının 70 ildən sonra dövlət atributu kimi qaldırılmasının təşəbbüskarı və icraçısı olmuşdur. Doğrudur, həmin tarixdən əvvəl də Azərbaycan Xalq Cümhuriyyətini, bayrağı meydanlara, mitinqlərə gətirilirdi. Ancaq həmin faktlar azadlıqsevər insanların özfəaliyyəti səviyyəsindən kənara çıxmır, rəsmi və ya tarixi əhəmiyyət kəsb etmirdi.

Tarixi mənbələrdə oxuyuruq ki, Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan həmin bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi təsdiq edilib. Eyni zamanda, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında bu bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırıb.

1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Soveti vəsatətə baxıb və bu bayrağın yenidən Azərbaycanın Dövlət Bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul edib. Sonralar ümummilli lider bu barədə deyirdi: "Mən belə fikirdəyəm ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi qərarlar Azərbaycan Respublikasının işinə çox təsir etdi və Azərbaycan rəhbərliyi bir neçə belə qərarın qəbul edilməsində məcburiyyət qarşısında qaldı. Naxçıvan Muxtar Respublikasının üzərində bu bayraq 1990-cı il noyabrın 17-də, Azərbaycan Respublikasında isə 1991-ci il fevralın 5-də dalğalandı".

Xatırladaq ki, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı ilk dəfə 1918-ci il noyabrın 9-da Bakıda, hökumətin iclasında qəbul edilib və iclasın keçirildiyi Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının binası (indiki Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin "Azneft" İstehsalat Birliyinin binası) üzərində qaldırılıb. 1920-ci il aprelin 27-nə - Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna qədər dövlət statusuna malik olan bu bayraq 1920-ci il mayın 3-də Azərbaycan Parlamentinin binası üzərindən endirilib.

Həmin tarixi fakta böyük ehtiramla yanaşan Azərbaycan Prezidenti İlham Əliyevin 2009-cu il noyabrın 17-də imzaladığı sərəncamla hər il noyabrın 9-u ölkədə Dövlət Bayrağı Günü kimi qeyd edilir. 2010-cu il sentyabrın 1-də Bakıda Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimində çıxış edən dövlət başçımız demişdi ki, bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun, Azərbaycan bayrağına!.

O vaxt erməni ideoloqları İlham Əliyevə cavab verməк istəyəndə yenə də mifdən, nağıldan danışmışdılar. Erməni separatçı rejiminin bəzi nümayəndələri o vaxt demişdilər: "Ancaq bir halda Azərbaycan bayrağı Şuşada qaldırıla bilər: əgər Azərbaycan Dağlıq Qarabağ Respublikasını tanısa və Azərbaycan Dağlıq Qarabağda öz səfirliyini açsa". Yəni olduqca iyrənc, təkəbbürlü və təhrikedici fikirlər idi. Dövlət başçımız Şuşada xatırlatdı ki, indi həmin ermənilər siçan kimi gizləniblər, dillərini qoyublar qarınlarına. Bir kəlmə də söz deyə bilmirlər: "Biz buraya qalib kimi gəlmişik, bayrağı da qaldırmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Döyüşə-döyüşə gəlmişik".

Dövlət bayrağımız haqqında danışarkən xüsusilə qeyd edilməli məqamlardan biri də ölkəmizin beynəlxalq aləmə inteqrasiyasının gündən-günə genişləndirilməsidir. Çünki bu gün BMT, ATƏT, Avropa İttifaqı, NATO, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, MDB, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, ümumiyyətlə, dünyadakı bütün beynəlxalq təşkiatların mənzil qərargahı qarşısında dalğalanan bayraqlar arasında üçrəngli Azərbaycan bayrağı da var.

Bundan başqa, dünyanın yüzə yaxın ölkəsində Azərbaycan səfirliyi, konsulluğumuz, ticarət nümayəndəliyimiz fəaliyyət göstərir və onların hamısının inzibati binasının önündə dövlət bayrağımız var. Eləcə də dövlət başçımızın yürütdüyü idman və gənclər siyasətləri nəticəsində hər il dünyanın onlarca ölkəsində keçirilən idman yarışlarında Azərbaycan bayrağı dəfələrlə qaldırılır. İdmançılarımızın bizə bəxş etdiyi ən möhtəşəm sevinc isə Ermənistanda keçirilən cüdo üzrə dünya birinciliyində Azərbaycan Dövlət Bayrağının İrəvanda qaldırılması idi.

Dövlət bayrağı haqqında danışarkən haqlı olaraq fəxr etdiyimiz məqamlardan biri isə sözün bütün mənalarında, daha ucadadır. Belə ki, kosmosdakı Azərbaycan rabitə peyklərinin hər üçünün üstündə üçrəngli bayrağımız təsvir olunub.

Azərbaycan bayrağı elm, incəsənət, ədəbiyyat və mədəniyyət xadimlərimizin də qürur, ilham mənbəyi kimi daim dillərdədir. Görkəmli şair Ramiz Qusarçaylının bir neçə il əvvəl qələmə aldığı "Azərbaycan bayrağı" şeiri isə bizim Şuşaya qayıdacağımıza olan inamı, ümidi artırdığına görə az qala bütün ölkə əhalisinin dilində əzbərdir.

***Sənsən Azadlıq eşqim, sənsən Hürr – deyəcəyəm,***
***Ən son nəfəsimdə də sənə şeir deyəcəyəm.***
***Şuşada sən qonduğun daşa pir deyəcəyəm,***
***Çəkəcəyəm gözümə kölgən düşən torpağı***
***Azərbaycan bayrağı!***
***Azərbaycan bayrağı!***

Bu sətirləri 44 günlük müharibə dövründə cəbhə xəttinə ən yaxın olan rayonlarımızdan birindəki hərbi hospitalda çalışmış tibb bacısının telekamera qarşısında göz yaşları ilə danışdığı faktla tamamlamaq istəyirəm: – Xəstəxanamıza gətirilən bütün yaralıların ya cibində, ya da sinəsinin üstündə Azərbaycan bayrağı var idi. Sağalıb bizdən ayrılanda hamı öz bayrağını istəyib götürürdü. Sağalmayan, şəhid olan yaralıların bayrağını isə tibb işçilərindən kimsə müqəddəs ziyarətgahdan gətirilmiş tutiyə kimi saxlayırdı.

İnanırıq ki, Dövlət Bayrağımıza olan bu sevgi, bu ehtiram dövlətimizin yüz illər boyu yaşamasına zəmin olacaq.

Bayrağımız daim ucalarda olsun!
Qarabağ Azərbaycandır!

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2021.- 7 noyabr.- S.1;9.